# Yubiley münasibətilə minifutbol turniri

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Azərbaycanın Yekaterinburqdakı Baş Konsulluğunun təşəbbüsü və təşkilatçılığı, "Azərbaycan-Ural" İctimai Milli-Mədəni Təşkilatının və Rusiya Azərbaycanlı Gənclər Birliyinin Sverdlovsk vilayətindəki nümayəndəliyinin dəstəyi ilə 2-ci minifutbol turniri keçirilib.**



Baş konsul vəzifəsini icra edən Şöhrət Mustafayev, Sverdlovsk vilayətinin bədən tərbiyəsi və idman nazirinin müavini Sergey Nabokix, RAGB-nin Sverdlovsk vilayəti üzrə nümayəndəliyinin rəhbəri Toğrul Həsənzadə ümummilli liderin keçdiyi ömür yolundan, idmana göstərdiyi diqqət və qayğısından danışıblar.

İlk 3 yeri tutmuş komandalara turnirin kuboku, medallar, diplomlar və Baş Konsulluq tərəfindən müxtəlif məbləğdə pul mükafatları təqdim olunub.

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 31 may.- S.10.